# AZƏRBAYCAN ATLETİKA FEDERASİYASI

İctimai Birliyinin

NİZAMNAMƏSİ

________

# 1. ÜMUMİ MÜDDƏALAR

1.1 “Azərbaycan Atletika Federasiyası” (bundan sonra “AAF” adlandırılacaq) İctima Birliyi, Azərbaycan Respublikası Konstitusiyası, Azərbaycan Respublikasının Mülki Məcəlləsi, “Bədən Tərbiyəsi və İdman haqqında” Azərbaycan Respublikasının Qanunu, “Qeyri-hökümət təşkilatları (ictimai birliklər və fondlar) haqqında” Azərbaycan Respublikasının Qanunu əsasında fəaliyyət göstərir.

1.2 AAF atletikanın inkişafı və populyarlaşması ilə məşğul olan idmançıların, məşqçilərin, mütəxəssislərin və idman cəmiyyətlərinin hüquq bərabərliyi və könüllü iştirakı ilə yaradılmış, müstəqil, qeyri-kommersiya təşkilatı olan bir ictimai birlikdir.

1.3 AAF qanunvericiliklə müəyyən olunmuş qaydada dövlət akkreditasiyasından keçdikdən sonra respublika idman federasiyası statusunu alır.

1.4 Federasiyanın rəsmi adı:

Azərbaycan dilində: “Azərbaycan Atletika Federasiyası” ictimai birliyi.

İngilis dilində “Azerbaijan Athletics Federation” public union

1.5 AAF, əsas məqsəd kimi gəlir əldə etməyi nəzərdə tutmayan və əldə etdiyi gəliri öz üzvləri arasında bölməyən qeyri-hökümət təşkilatıdır.

1.6 AAF Azərbaycan Respublikasının qanunvericiliyi, Dünya Atletikasının (DA) (World Athletics, WA), Avropa Atletika Assosiyasiyasının (AAA) Beynəlxalq və Milli Olimpiya Komitəsinin tələbləri və reqlamenti əsasında öz fəaliyyətini həyata keçirir.

1.7 AAF, 16.07.1993-cü il tarixində 406 qeydiyyat nömrəsi ilə Azərbaycan Respublikası Ədliyyə Nazirliyində dövlət qeydiyyatına alınmışdır.

1.8 AAF, fəaliyyəti bütün ölkəni əhatə edən və daimi fəaliyyət göstərən bir ictimai birlikdir;

1.9 AAF stadionda keçirilən atletika növlərinin, idman yerişi, şose, kros, dağ qaçışlarının təbliği və inkişafı istiqamətində fəaliyyət göstərir.

1.10 AAF-a Dövlət təşkilatları, sponsorlar, fiziki və hüquqi şəxslər tərəfindən verilən əmlak və ya pul vəsaiti, həmçinin daxil olan üzvlük haqları, AAF-ın reklam fəaliyyəti ilə əlaqədar bağlanılan müqavilələrdən daxil olan vəsaitlər AAF-ın mülkiyyətidir. AAF iştirakçıları AAF-ın öhdəlikləri üçün, AAF isə öz iştirakçılarının öhdəlikləri üçün məsuliyyət daşımır.

1.11 AAF ona məxsus olan mülkiyyətdən yalnız bu nizamnamə ilə müəyyənləşdirilmiş məqsədlərin həyata keçirilməsi üçün, Azərbaycan Respublikasının qanunları ilə qadağan olunmayan formada istifadə edə bilər.

1.12 AAF-ın mülkiyyətində daşınan və daşınmaz əmlak ola bilər ki, bununlada o, öz öhdəlikləri üçün bu əmlaka cavabdehdir, öz adından əmlak və şəxsi qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək, vəzifələr daşımaq, məhkəmədə iddiaçı və cavabdeh olmaq və qanunla qadağan olunmayan nizamnamə fəaliyyətini həyata keçirmək üçün zəruri mülki hüquqlara malik olmaq və vəzifələr daşımaq hüququ vardır.

1.13 AAF qarşıya qoyulmuş məqsədlərə nail olmaq, atletika növlərinin inkişafına yönəlmiş vəsait qazanmaq üçün sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq, müvafiq təsərrüfat cəmiyyəti yaratmaq, bununla əlaqədar müqavilələr bağlamaq hüququna malikdir.

1.14 AAF müstəqil balansa, emblemə, girdə möhürə, künc ştampına, bayrağa,nişana, bank hesabına və digər rekvizitlərə malikdir.

1.14.1 AAF-ın embleminin təsviri:

1.14.2 AAF-ın bayrağı:

1.14.3 AAF keçirdiyi tədbirlərdə öz emblemindən istifadə etmək və bayrağını dalğalandırmaq hüququnu özündə saxlayır.

1.15 AAF Olimpiya hərəkatının prinspilərini qəbul edir və onun həyata keçirilməsinə dəstək verir.

1.16 AAF siyasi fəaliyyət göstərmir və siyasi hadisələrə müdaxilə etmir.

1.17 AAF-ın yerləşdiyi ünvan: AZ 1072, Bakı şəhəri, Nərimanov rayonu, Fətəli Xan Xoyski 98a.

## 2. AAF-IN MƏQSƏDLƏRİ VƏ VƏZİFƏLƏRİ

2.1 AAF-ın əsas məqsədi atletika idman növünün inkişafına və təbliğinə kömək etməkdən ibarətdir.

2.2 AAF bu məqsədə çatmaq üçün aşağıdakı vəzifələri həyata keçirir:

2.2.1 Atletikanın inkişaf etdirilməsi, kütləviləşdirilməsi, yeniyetmə və gənclərin kütləvi şəkildə atletika növləri ilə məşğul olmağa cəlb

etməklə onların fiziki cəhətdən sağlam böyüməsi, Azərbaycan Ordusuna çağırış yaşlı gənclərin vətənpərvərlik ruhunda tərbiyə edilməsi;

2.2.2 Ayrı-ayrı hazırlıq qruplarında məşq, yarış, hazırlıq səviyyəsi üzərində nəzarət sistemini yaradır;

2.2.3 İlkin və təlim-məşq qruplarına yeniyetmə və gənclərin cəlb olunması üçün ümumtəhsil və digər təhsil müəssisələri ilə əlaqələri gücləndirmək, idman yönümlü yeniyetmələrin seçilməsi məqsədi ilə yarış sistemini yaratmaq;

2.2.4 Respublika ərazisində regional və zona yarışlarını təşkil edir və keçirir;

2.2.5 Müxtəlif yaş qrupları üzrə yığma komandalarının tərkibini müəyyən edir, onların hazırlıq prosesinə nəzarəti həyata keçirir, zəruri maliyyə dəstəyi göstərir;

2.3 DA, AAA və digər beynəlxalq atletika qurumlarının təsis etdiyi, müxtəlif yaş qrupları üçün keçirilən rəsmi yarışlarda Azərbaycan Respublikasını təmsil etmək üçün yığma komandaları hazırlayır;

2.4 DA, AAA, yarış, antidopinq qaydalarına və reqlamentlərinə əməl edir, DA Şurasının qəbul etdiyi qərarları yerinə yetirir;

2.5 Atletika idman növü ilə məşğul olanlar üçün həvəsləndirici tədbirlər həyata keçirir, onlara cinsi, irqi, dini etiqad və digər əlamətlərdən asılı olmayaraq eyni fəaliyyət şəraiti yaradır;

## 3. AAF-IN FƏALİYYƏT İSTİQAMƏTLƏRİ

AAF qarşıya qoyulmuş məqsədləri həyata keçirmək üçün öz fəaliyyətini aşağıdakı istiqamətlərdə qurur:

3.1 AAF atletika idmanını təbliğ edir və onun inkişafına şərait yaradır, bu məqsədlə kütləvi yarışlar keçirir, onların birbaşa efirə verilməsini və digər kütləvi informasiya vasitələrində atletikanın təbliğini təşkil edir;

3.2 Məktəblilərin və çağırış yaşlı gənclərin silsilə yarışlarını təşkil edir və keçirir;

3.3 Atletikanı inkişaf etdirən klub, cəmiyyət, idman birliklərinin işini əlaqələndirir, bu təşkilatlarda atletika növlərinin inkişaf səviyyəsini müəyyənləşdirmək üçün müxtəlif kubok yarışları təşkil edir;

3.4 Ayrı-ayrı hazırlıq qrupları üzrə yığma komandaların tərkibini müəyyənləşdirir (idmançılar və məşqçilər), bu komandalar müxtəlif növ qrupları üzrə təlim-məşq proqramları hazırlayır, yığma komandaya cəlb edilmiş idmançıların müstəqil monitorinqini keçirir;

3.5 Atletika üzrə ayrı-ayrı yaş qrupları üzrə rayon, şəhər, zona, respublika çempionatlarını təşkil edir və keçirir;

3.6 Olimpiya oyunları, DA və AAA-nın rəsmi yarışlarında Azərbaycanı təmsil etmək üçün komandaları formalaşdırır, hazırlayır və təlim-məşq toplanışları keçirir;

3.7 Yığma komanda üzvlərinin reytinq cədvəlini hazırlayır və razılaşdırılması üçün Gənclər və İdman Nazirliyinə göndərir;

3.8 Azərbaycan Respublikası ərazisində atletika növləri üzrə beynəlxalq yarışların keçirilməsi istiqamətində iş aparır;

3.9 Müxtəlif hazırlıq qrupları ilə işləyən məşqçilərin, eləcə də hakimlərin peşə hazırlığını artırmaq üçün seminarlar təşkil edir, keçirir, onları ixtisasartırma kurslarına göndərir.

3.10 İdmançıların, məşqçilərin, mütəxəssislərin və hakimlərin maraqlarını təmsil edir;

3.11 Azərbaycan yığma komandasının məşqçi kadrlarının, digər mütəxəssislərin seçilməsi və yerləşdirilməsində iştirak edir.

3.12 Beynəlxalq yarış qaydalarına uyğunlaşdırılmış yerli yarış qaydalarını işləyib hazırlayır.

3.13 DA, AAA-nın qayda və reqlamentlərini öz fəaliyyətində tətbiq edir, onlara əsaslanır;

3.14 Azərbaycan rekordlarını qeydə alır və təsdiq olunması üçün Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinə göndərir.

3.15 Atletikanın inkişafı üçün proqramlar işləyib hazırlayır və həyata keçirir;

3.16 İdman mövsümünün nəticələrinə görə hər il həvəsləndirici müsabiqələr keçirir, qalib və mükafatçıları təltif edir;

3.17 Federasiyanın simvolikası ilə mükafat atributlarının buraxılmasını təşkil edir;

3.18 Atletika idmanının inkişafında xidmətləri olan şəxslərin mükafatandırılması və fəxri adların verilməsi üçün vəsatət qaldırır;

3.19 Atletika üzrə pullu xidmət göstərən qrumlar təsis edir;

3.20 Atletika idman növləri üzrə idman inventarında, avadanlığında, geyimində və ayaqqabıda tələbatı öyrənir və bununla bağlı idman təyinatlı məhsulları və digər idman vasitələrini əldə edir və ya onların istehsalı sahələrini yaradır;

3.21 Qanunvericiliyə müvafiq olaraq ticarət, iaşə, xarici ticarət, iqtisadi, idman əlaqələri qura, birgə müəssisələr yarada, beynəlxalq idman təşkilatlarına üzv ola, birbaşa əlaqələr yarada, beynəlxalq təşkilatların tədbirlərində iştirak edə bilər;

3.22 Beynəlxalq təşkilatlar, federasiyalarla əlaqələr qurur, əməkdaşlıq edir, DA, AAA və digər beynəlxalq qurumların keçirdiyi seminar, müşavirə, təlim-məşq toplanışları və digər tədbirlərdə AAF təmsilçilərinin iştirakını təmin edir;

3.23 Azərbaycan Respublikası ərazisində atletikanı inkişaf etdirən bütün təşkilatlarının fəaliyyətini koordinasiya edir;

3.24 Uzun illər Azərbaycanı Beynəlxalq aləmdə təmsil edən, Dünya, Avropa çempionatlarında, beynəlxalq turnirlərdə çıxış edən idmançılara müavinət və təqaüdlər təyin edir;

3.25 Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyi ilə qadağan olunmayan və həmçinin bu nizamnamədə göstərilməyən başqa növ fəaliyyətləri müəyyən edilmiş qaydada həyata keçirir.

## 4. ÜZVLÜK

AAF-ın üzvlüyünə qəbul olunma və ondan çıxmanın şərtləri və qaydaları:

4.1 AAF-ın təsisçiləri hüquqi şəxslər (dövlət hakimiyyəti və yerli özünüidarə orqanları istisna olmaqla) və ya 18 yaşına çatmış fiziki şəxslər ola bilər.

4.2 AAF-ın üzvlüyünə qəbul olunmaq və ya üzvlüyündən çıxma barədə qərar AAF-ın İcraiyyə Komitəsinin iclasında qəbul edilir.

4.3 AAF-ın üzvlüyünə qəbul olunmaq və üzvlükdən könüllü surətdə çıxmaq istəyən şəxs, ərizə və ona əlavə olunmuş sənədlərlə, AAF-ın prezidentinə müraciət etməlidir. Ərizə katiblik tərəfindən onun təqdim olunma tarixi göstərilməklə AAF-ın ərizə və müraciətlər kitabına daxil edilir və müvafiq hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq daxili struktur bölməsinə (komitə, komissiya) göndərilir.

4.4 AAF-ın üzvlüyünə qəbul olunmaq haqqında ərizə və ona əlavə olunmuş sənədlər:

Hüquqi şəxslər üçün:

- Fəaliyyət göstərən işçilərin siyahısı (klublar, məşqçilər, idmançılar, rəsmi şəxslər)
- Qüvvədə olan yarış qaydalarına və DA-nın nizamnaməsinə əməl ediləcəyi haqda öhdəlik;
- Təşkilatın rəsmi ünvanı, idarəedici orqanla əlaqə vasitələri haqqında informasiya.
-

Fiziki şəxslər üçün:

- Ərizə
- Yarış fəaliyyəti zamanı qüvvədə olan yarış qaydaları və AAF-ın nizamnaməsinə əməl edəcəyi haqqında öhdəlik;
- Əlaqə forması haqqında informasiya.

4.5 Sənədlər üzvlük komitəsinə daxil olduğu gündən 2 (iki) həftə ərzində üzvlük komitəsinin iclasının müzakirəsinə çıxarılır, ərizəçinin işgüzar nüfuzunu, üzvlük haqqını ödəmək qabiliyyətini, işgüzar əlaqələrini, AAF-ın fəaliyyət məqsədlərini həyata keçirməkdə verə biləcəyi töhfəni və digər halları nəzərə alaraq ərizəçinin AAF-ın üzvlüyünə qəbul edilməsinin mümkünlüyü barədə rəy verilir.

4.6 Ərizəçinin AAF-ın üzvlüyünə qəbul olunması İcraiyyə Komitəsinin iclasında mümkün hesab edilmədikdə, ərizə və ona əlavə olunmuş sənədlər, üzvlüyə qəbul olunmaqdan imtina haqqında əsaslandırılmış cavab məktubu ilə ərizəçiyə geri qaytarılır. Ərizəçi üzvlüyə qəbul olunmadan imtina haqqında qərardan Konfransa şikayət verə bilər.

4.7 Nizamnamənin 4.5 bəndi ilə müəyyənləşdirilmiş hal baş verdikdə, ərizəçi ərizə və ona əlavə edilmiş sənədlər ona qaytarıldığı gündən etibarən ən azı 1 (bir) il sonra yenidən ümumi qaydada AAF-ın üzvlüyünə qəbul olunmaq üçün müraciət edə bilər.

4.8 AAF-ın üzvlüyünə aşağıdakı hallarda xitam verilir:

- Üzvlükdən çıxma haqqında ərizə daxil olduqda (ərizə verilən vaxta üzvlük haqqı ilə bağlı borcu olmadığı təqdirdə);
- Üzv olan hüquqi şəxs ləğv edildikdə;
- Üzv olan fiziki şəxs vəfat etdikdə;
- Üzvlükdən çıxarılma haqqında İcraiyyə Komitəsi tərəfindən qərar qəbul edildikdə.

4.9 AAF-ın üzvlüyündən çıxarılmanın əsasları aşağıdakılardır:

- Üzv AAF-ın Nizamnaməsinə riayət etmədikdə;
- Üzv, üzvlük haqqını AAF-ın İcraiyyə Komitəsinin qərarı ilə müəyyənləşdirilən müddətdə və qaydada ödəmədikdə;
- Üzv AAF-ın mənafelərinə xələl gətirən hərəkətlərə yol verdikdə.

4.10 AAF-ın üzvlüyündən çıxarılma haqqında qərar İcraiyyə Komitəsinin iclasında qəbul edilir və həmin qərardan birliyin ali idarəetmə orqanına və məhkəməyə şikayət verilə bilər.

## 5. AAF-IN HÜQUQ VƏ VƏZİFƏLƏRİ

AAF aşağıdakı vəzifələri yerinə yetirməlidir:

5.1 Atletika idmanının inkişafına yönəlmiş və nizamnamədə göstərilmiş məqsədləri həyata keçirir;
5.2 DA və AAA-nın bütün yarış qaydaları və reqlamentinə əməl edir;
5.3 DA və AAA-nın Konqres və Şurasının qərarlarını tanıyır və yerinə yetirir;
5.4 DA və AAA-nın Nizamnaməsi, yarış qaydaları və reqlamentinə müvafiq zəruri olan müddəaları öz nizamnaməsinə daxil edir;
5.5 Atletika üzrə Beynəlxalq yarışlarda (Dünya atletika seriyaları da daxil olmaqla) və müvafiq Qitə yarışlarında iştirak edir;
5.6 Hazırda qüvvədə olan Nizamnaməsinin ingilis dilində nüsxəsini DA-ya təqdim edir;
5.7 Qüvvədə olan tələbləri müvafiq tərtib edilmiş illik hesabatı hər il mart ayının 31-nə kimi DA və AAA-ya təqdim edir.

## 6. AAF ÜZVLƏRİNİN HÜQUQ VƏ VƏZİFƏLƏRİ

6.1 AAF-ın üzvlərinin hüquqları:

6.1.1. Rəhbər orqanlarına seçə və seçilə bilmək;

6.1.2. AAF-ın fəaliyyətində iştirak edə, rəhbər orqanlarının fəaliyyətinə nəzarət edə bilmək;

6.1.3. AAF-ın maddi vəsaitlərindən, idman texnikasından, simvolikasından və güzəştlərindən istifadə etmək.

6.2 AAF-ın üzvlərinin vəzifələri:

6.2.1. AAF nizamnaməsinə riayət etmək və onun fəaliyyətində fəal iştirak etmək;

6.2.2. Konfransın qərarlarını icra etmək;

6.2.3. Konfransın iclasında iştirak etmək;

6.2.4. AAF-ın icra orqanı tərəfindən müəyyən olunmuş həcmdə və qaydada üzvlük haqlarını ödəmək.

6.3 AAF-ın üzvlərinə təsisçilər, fəxri sədrlər, fəxri üzvlər, üzvlər və köməkçilər aiddir.

6.4 AAF-ın fəxri prezidenti və fəxri üzvləri AAF-ın İcraiyyə Komitəsinin təsdiqi ilə fəxri sədr və üzv statusu verilən hüquqi (və ya fiziki) şəxslərdir.

6.5 AAF-ın üzvlüyünə AAF-ın İcraiyyə Komitəsinin qərarı ilə müəyyənləşdirilən hüquqi və fiziki şəxslər qəbul oluna bilər.

6.6. AAF-ın köməkçiləri AAF-ın İcraiyyə Komitəsinin qərarı ilə müəyyənləşdirilən, AAF-ın fəaliyyətində iştirak etməklə ona müxtəlif kömək və

ya xidmətlər göstərməklə AAF-ı dəstəkləyən fiziki və hüquqi (dövlət hakimiyyəti və yerli özünüidarə orqanları istisna olmaqla) şəxslərdir.

6.7. Fəxri sədr və fəxri üzvlər:

6.7.1. İcraiyyə komitəsi atletika idman növünün inkişafına verdiyi töhfələrinə görə üzvlərinə fəxri prezident, vitse prezident və üzv adını təqdim edə bilər.

## 7. AAF-IN İDARƏ EDİLMƏSİ

AAF-ın idarəedici orqanları aşağıdakılardır:

- Konfrans (hesabat və hesabat-seçki);
- İcraiyyə komitəsi;
- Nəzarət-təftiş komissiyası;
- Komitə və komissiyalar;

7.1. AAF-ın ali idarəetmə orqanı Konfransdır.

7.1.1. Konfrans növbəti və növbədənkənar ola bilər.

7.1.2. Konfrans ildə bir dəfədən az olmayaraq müvafiq təqvim ili başa çatdıqdan sonra 3 (üç) aydan gec olmayaraq İcraiyyə Komitəsi tərəfindən çağırılmalıdır.

7.1.3. Konfransın keçirilmə yeri, tarixi, vaxtı və iclasın gündəliyi barədə məlumatlar iclasın çağırılma tarixindən ən azı 3 (üç) həftə əvvəl təsisçilərə və üzvlərə göndərilən (təqdim olunan) yazılı bildirişdə göstərilir.

7.1.4. Konfrans nümayəndələrinin sayı AAF-ın İcraiyyə Komitəsində müəyyənləşdirilir. Özündə atletikanın inkişaf etdirən, DA, AAA, AAF-ın nizamnamə, yarış qaydaları və reqlamentini qəbul edən fiziki və hüquqi üzvlərin iştirak kvotası müəyyən olunur.

7.1.5. Növbədənkənar Konfrans, keçirilmə zərurəti yarandıqda, İcraiyyə Komitəsinin üzvlərinin 2/3 hissəsinin tələbi ilə keçirilə bilər.

7.1.6. AAF-ın hüquqi və fiziki üzvləri üçün kvota ilə müəyyən olunmuş nümayəndələrin ½ hissəsi (yarısı) +1 nümayəndə iştirak etdikdə Konfrans səlahiyyətli sayılır.

7.1.7. Konfrans üzvlərinin sadə səs çoxluğu ilə seçdiyi nümayəndə Konfransın keçirilməsinə sədrlik edir.

7.1.8. Konfrans çağırıldıqda, iclasın yerini, vaxtını, iştirakçılarını, gündəliyini, çıxışların xülasəsini, səsvermənin nəticələrini və qərarlarını əks etdirən protokol tərtib edilir. Həmin protokol Konfransın sədri və katibi tərəfindən imzalanır, AAF-ın girdə möhürü ilə təsdiq edilir və hər il üzrə uçotu aparılır. Lazım gəldikdə Konfransın protokolu bütün üzvlərə paylanılır.

7.1.9. Konfrans qərarlarının qəbulu Konfrans iştirakçılarının 2/3 hissəsinin səsi ilə qəbul edilir.

7.1.10. Konfransın səlahiyyətlərinə aşağıdakılar daxildir:

- Prezidentin seçilməsi
- Vitse-Prezidentin seçilməsi
- İcraiyyə Komitəsinin üzvlərinin seçilməsi
- Nizamnamənin qəbulu və ona dəyişiklər edilməsi;
- Əmlakın formalaşma və istifadə prinsiplərinin müəyyən edilməsi;
- illik hesabatın təsdiq edilməsi;
- başqa təşkilatlarda iştirakın təmin edilməsi;
- AAF-ın yenidən təşkili və ləğv edilməsi;
- idarəetmə orqanlarının seçilməsi, yaradılması və onların səlahiyyətlərinin vaxtından əvvəl dayandırılması;
- idarəetmə orqanları tərəfindən qəbul olunmuş qeyri-qanuni və AAF-ın maraqlarına zidd olan qərarları ləğvetmək və yeni qərar qəbul etmək;

7.2. AAF-ın hesabat-seçki Konfransı 4 (dörd) ildə bir dəfə keçirilir.

7.3. Konfransın gündəliyinə daxil edilməyən məsələlər Konfransda müzakirə edilə bilməz.

7.4. Zəruri hallarda İcraiyyə Komitəsinin təşəbbüsü ilə Konfransın gündəliyinə əlavə məsələlər daxil edilə bilər.

## 8. Konfransda İŞTİRAK

8.1 AAF-ın hüquqi üzvü olan hüquqi və fiziki şəxslər Konfransda iştirak edə bilər.

8.2 Bir nümayəndə yalnız bir hüquqi üzvü təmsil edə bilər.
8.3 AAF-ın üzvü olan hər bir hüquqi şəxsi təmsil edəcək nümayəndələrin səlahiyyəti həmin hüquqi üzv tərəfindən təsdiq edilməlidir.
8.4 AAF-ın fəxri üzvləri Konfransda iştirak etmək və çıxış etmək hüququna malikdirlər, lakin onların səsvermə hüquqları yoxdur (əgər onlar hər hansı hüquqi və ya fiziki nümayəndələrini təmsil etmirlərsə).
8.5 Konfransda seçkilər aşağıdakı ardıcıllıqla keçirilir:
8.5.1 Prezidentin seçkisi;
8.5.2 Vitse prezidentlərin seçkisi;
8.5.3 İcraiyyə komitəsi üzvlərinin seçkisi;
8.5.4 Komitə və komissiyaların yaradılması;
8.5.5 Nəzarət-təftiş komissiyasının tərkibi;

## 9. AAF-IN İCRAİYYƏ KOMİTƏSİ

9.1 AAF -ın fəaliyyətinə cari rəhbərlik, Konfrans iclasında hesabat verən və onun kollegial icra orqanı olan İcraiyyə Komitəsi tərəfindən həyata keçirilir.
9.2 İcraiyyə Komitəsinə Prezident rəhbərlik edir.
9.3 İcraiyyə Komitəsinin iclasları AAF-ın maraqları tələb etdikdə Prezident tərəfindən dərhal çağırılır (ən azı altı ayda bir dəfə).
9.4 İcraiyyə Komitəsinin iclası, üzvlərinin 2/3-si iştirak etdikdə səlahiyyətli sayılır.
9.5 İcraiyyə Komitəsinin iclasında hər üzv bir səsə malik olmaqla, qərarlar sadə səs çoxluğu ilə qəbul edilir. Səslərin sayı bərabər bölünərsə, Prezidentin səsi qərarın qəbul edilməsi və ya rədd edilməsi üçün həlledici hesab edilir. Səsvermə zamanı bitərəf qalmağa icazə verilmir.
9.6 İcraiyyə Komitəsinin iclası çağırıldıqda, iclasın yerini, vaxtını, iştirakçılarını, gündəliyini, çıxarışların xülasəsini, səsvermənin nəticələrini və qərarlarını əks etdirən protokol tərtib edilir. Həmin protokol Prezident və İcraiyyə Komitəsinin iclasda iştirak edən bütün üzvləri tərəfindən imzalanır, AAF-ın girdə möhürü ilə təsdiq edilir və hər il üzrə uçotu aparılır.
9.7 İcraiyyə Komitəsi öz fəaliyyəti barədə Konfransa hesabat verir.
9.8 İcraiyyə Komitəsinin səlahiyyətinə aşağıdakılar aid edilir:

9.8.1. AAF-ın cari fəaliyyətinə rəhbərlik edir və onun operativ idarə olunmasını həyata keçirir;

9.8.2. AAF-ın adından bütün növ müqavilələr bağlayır, vəkalətnamələr verir (o cümlədən başqasına etibar etmək hüququ ilə), banklarda AAF-ın

cari və başqa bank hesablarını açır və maliyyə-təsərrüfat fəaliyyəti ilə bağlı bank əməliyyatlarını aparır;

9.8.3. AAF-ın icra orqanlarının strukturunu formalaşdırır, bununla bağlı komitələr, komissiyalar və digər daxili struktur bölmələr yaradır, onların səlahiyyət dairəsini müəyyən edir, əsasnamələrini təsdiq edir və fəaliyyətinə xitam verir;

9.8.4. AAF-ın daxili əmək intizamı qaydalarını, ştat vahidlərini, tərəfindən qəbul edilmiş qərarların vaxtında və lazımi qaydada icra olunmasını təmin edir;

9.8.5. AAF-ın əməkdaşlarının vəzifə təlimatını (əmək funksiyasını) hazırlayır və təsdiq edir;

9.8.6. AAF-ın işçilərini işə qəbul edib, işdən azad edir. İşçilərə həvəsləndirmə tədbirləri tətbiq edir və onları intizam məsuliyyətinə cəlb edir;

9.8.7. AAF-ın üzvlüyünə qəbul edir;

9.8.8. AAF-ın daxili fəaliyyət məsələləri üzrə qərar qəbul edir və əmrlər (sərəncamlar) verir;

9.8.9. AAF-ın filiallarını yarada və nümayəndəliklərini aça bilər;

9.8.10. Üzvlük haqlarının miqdarını və ödənilməsi şərtlərini və qaydalarını müəyyənləşdirir;

9.8.11. AAF-ın nəzdində yüksək ustalıqlı atletlər hazırlamaq üçün imkan daxilində idman klublarını yarada bilər;

9.8.12. AAF-ın fəaliyyəti ilə bağlı digər zəruri sənədlərin və təkliflərin hazırlanmasını həyata keçirir;

9.9. İcraiyyə Komitəsinin səlahiyyətinə Konfransın bu Nizamnamə ilə müəyyən edilən müstəsna səlahiyyətini təşkil etməyən bütün məsələlərin həlli aiddir.

## 10.İCARİYYƏ KOMİTƏSİ ÜZVLƏRİ VƏ ONLARIN VƏZİFƏLƏRİ

10.1 İcraiyyə Komitəsinin üzvləri:

- Prezident;
- Üç nəfər vitse-prezident;
- Fərdi üzvlər.

10.2 İcraiyyə komitəsinin üzvlərinin səlahiyyət müddəti 4 ildir.

10.3 Prezidentin vəzifələri:

10.3.1 AAF-a rəhbərlik edir;

10.3.2 Vəkalətnamə olmadan AAF adından öz səlahiyyətləri çərçivəsində çıxış edir, onu istər ölkə daxilində, istərsə də xaricdə bütün dövlət orqanlarında, ümumi və ixtisaslaşdırılmış məhkəmələrdə təmsil edir;

10.3.3 Bu Nizamnamə ilə müəyyənləşdirilmiş İcraiyyə Komitəsinin səlahiyyətlərini həyata keçirilməsini bilavasitə təmin edir;
10.3.4 Beynəlxalq görüşlərdə federasiyanın adından çıxış edir və onu təmsil edir;
10.3.5 İcraiyyə komitəsinin iclaslarına sədrlik edir;
10.3.6 Konfransın və İcraiyyə Komitəsinin qərarlarının icrasını təmin edir;
10.3.7 AAF-ın fəaliyyət proqramını, büdcə və smetasını təsdiq edir;
10.3.8 AAF-ın idarələrinin və daxili struktur bölmələrinin rəhbərlərini təyin edir;
10.3.9 Hər il Konfrans qarşısında İcraiyyə Komitəsinin fəaliyyəti barədə hesabat verir;
10.3.10 AAF-ın səmərəli idarə olunmasını təşkil edir;
10.3.11 Ştat cədvəlinə və büdcəyə uyğun AAF-a işçilər cəlb edir;
10.3.12 Konfransın təsdiqi üçün AAF-ın illik və dörd illik iş planını tərtib edir;
10.3.13 AAF bu Nizamnamə ilə müəyyən edilmiş məqsədlərin həyata keçirilməsi üçün digər vəzifələri həyata keçirir.

10.4. Vitse-prezidentin vəzifələri:

10.4.1. Rəhbərlik etdiyi sahə üzrə ona həvalə olunmuş funksiyaları həyata keçirir və öz fəaliyyəti barədə prezidentə hesabat verir;

10.4.2. Prezidentin olmadığı vaxt eləcə də prezidentin tapşırığı ilə prezidentin müəyyən etdiyi vəzifələri icra edir;

10.4.3. Rəhbərlik etdiyi sahə üzrə keçirilən beynəlxalq müsabiqələrdə, yarışmalarda, seminarlarda, simpoziumlarda və s. AAF-ı təmsil edir.

10.5 AAF-ın baş katibi icraiyyə komitəsi tərəfindən 4 (dörd) il müddətinə təyin olunur və aşağıdakı vəzifələri həyata keçirir:

10.5.1. Konfransın və İcraiyyə Komitəsinin iclaslarının keçirilməsini və onların gündəliyini təşkil edir;

10.5.2 AAF prezidentinin vəkalətnaməsi əsasında həm ölkə daxilində həm də ölkə xaricində AAF-ı təmsil edir

10.5.3 Dünya Atletikası və Avropa Atletikasının üzv federasiyaları ilə əməkdaşlıq edir, həmçinin DA və AAA ofisi ilə əlaqə yaradır.

10.5.4 AAF ofisinin fəaliyyəti və beynəlxalq şöbənin fəaliyyətinə rəhbərlik edir.

10.5.5. Kargüzarlıq işlərini təşkil edir və onları aparır;

10.5.6. AAF-ın protokol işlərini təşkil edir;

10.6. AAF-ın maliyyə-təsərrüfat fəaliyyətinə nəzarət və onun təftişini həyata keçirmək məqsədi ilə üç fiziki və (və ya) hüquqi şəxsdən ibarət Nəzarət-təftiş Komissiyası yaradılır.

10.7. Nəzarət-təftiş Komissiyasının üzvləri Konfransda AAF-ın üzvləri sırasından seçilir.

10.8. Nəzarət-təftiş Komissiyasının üzvü İcraiyyə Komitəsinin üzvü ola bilməz.

10.9. Nəzarət-təftiş Komissiyası AAF-ın maliyyə-təsərrüfat fəaliyyətinə nəzarət və illik hesabatlar və balanslar əsasında rəy tərtib edir. Bu komissiyasının rəyi olmadan Konfransın illik balansı təsdiq edilə bilməz.

10.10. Nəzarət-təftiş Komissiyası AAF-ın maliyyə-təsərrüfat fəaliyyətinin təftişini aşağıdakı hallarda həyata keçirir:

10.10.1. Təsərrüfat ili başa çatdıqda;

10.10.2. Konfransın tələbi ilə;

10.10.3. Nizamnamədə nəzərdə tutulan digər hallarda.

## 11.Seçkilər

11.1 Hər hesabat-seçki Konfransı zamanı aşağıdakı vəzifələr üzrə şəxslər seçilir:

a) Prezident
b) 3 (üç) nəfər Vitse-prezident
c) 9 (doqquz) nəfər İcraiyyə Komitəsinin üzvləri

12.1.1 Seçkilərə namizədlərin irəli sürülməsi hər bir üzv tərəfindən edilə bilər və seçkinin keçirildiyi Konfransdan ən azı 45 gün əvvəl AAF tərəfindən yazılı şəkildə qəbul edilməlidir;

12.1.2. Prezident və vitse prezidentlərin heyətində hər cinsdən ən azı bir nümayəndə olmalıdır.

12.1.3. 9 (doqquz) İcraiyyə Komitəsinin üzvləri arasında hər cinsdən ən azı 3 (üç) nümayəndə təmsil olunmalıdır.

# 12.KOMİTƏLƏR, KOMİSSİYALAR

AAF-ın nəzdində 4 (dörd) il müddətində seçilmiş aşağıdakı komitə, komissiyalar olmalıdır:

12.1. Komitələr:

12.1.1. Texniki komitə (Hakimlər kollegiyası)- yarışların DA, AAA yarış qaydaları və reqlamentinə müvafiq keçirilməsinə nəzarət edir. Texniki komitə sədr və 6 (altı) üzvdən ibarətdir.

12.1.2. Qadın komitəsi- Respublikada qadınların atletikaya cəlb olunması, atletikanın qadınlar arasında təbliği işini həyata keçirir. Sədr və 4 (dörd) üzvdən ibarətdir.

12.1.3. Məşqçilər komitəsi – Yığma komanda üzvlərinin yerli və beynəlxalq yarışlara hazırlıq prosesinə nəzarət edir. Sədr və 6 (altı) üzvdən ibarətdir.

12.2. Komissiyalar:

12.2.1. Antidopinq komissiyası- Ümumdünya Antidopinq Agentliyi, Azərbaycan Antidopinq Agentliyi, DA və Atletika Dürüstlük Birliyinin (Athletics İntegrity Unit) qaydalarına riayət olunması məsələləri ilə məşğul olur. Sədr və 2 (iki) üzvdən ibarətdir.

12.2.2. Qaçış Hər Kəs üçün komissiyası –kros, şose, dağ və treyl qaçışlarının təbliği və inkişaf prespektivlərini, yarışlar sistemini işləyib hazırlayır. Tərkibi sədr və beş (5) üzvdən ibarət olur.

12.2.3. Usta idmançılar komissiyası- veteran idmançıların yarışları, yarışlara ezam olunması, iştirak məsələləri ilə məşğul olur. Tərkibi sədr və 4 (dörd) üzvdən ibarətdir.

12.2.4. İnkişaf komissiyası- Federasiya heyəti, hakim, məşqçi və idmançıların şəxsi inkişafı, maariflənməsi və yeni biliklərin əldə edilməsi məsələləri ilə məşğul olur. Tərkibi sədr və 5 (beş) üzvdən ibarətdir.

12.2.5. Atletlər komissiyası – Əsas məqsədi idmançıların maraqlarını qorumaq və onların şikayət və təkliflərini İcraiyyə Komitəsinə bildirməkdir. Tərkibi sədr və 5 (beş) üzvdən ibarətdir. Atletlər Komissiyasının sədri İcraiyyə Komitəsinin üzvü olur.

12.2.6. Mətbuat komissiyası- Atletikada baş verən yeniliklər barədə birbaşa efirə və kütləvi informasiya vasitələrinə ötürüləcək bütün məlumatlara nəzarət edir. Tərkibi sədr və 1 (bir) üzvdən ibarətdir.

12.2.7. Münaqişələr komissiyası – Bütün ixtilaf yaranmış halların müzakirəsi zamanı DA, AAA qayda və reqlamentləri əsas götürülür. Yarış qaydalarının, idmançı hüquqlarının pozulması, ədalətsizlik hallarının ilkin müzakirəsinin keçirilməsi və müzakirə sənədlərinin icraiyyə komitəsinə təqdim olunması məsələləri ilə məşğul olur. Tərkibi sədr və 3 (üç) üzvdən ibarətdir.

12.2.8 Nəzarət-təftiş komissiyası - AAF-ın maliyyə-təsərrüfat fəaliyyətinə nəzarəti və onun təftişini həyata keçirmək məqsədi ilə yaradılır tərkibi sədr və 2 (iki) üzvdən ibarətdir.

## 13.İNTİZAM NƏZARƏTİ

AAF tərəfindən intizama nəzarət qaydaları

13.1 AAF tərəfindən intizam məsuliyyətinə cəlb olunması əsasları:

13.1.1. Azərbaycan Respublikasının dövlət atributlarına hörmətsizlik;

13.1.2. DA, AAA və AAF-ın etika kodeksi qaydalarını pozduqda;

13.1.3. AAF-ın Konfrans iclaslarının aparılmasına mane olduqda;

13.1.4. AAF-ın Konfransında, yarışlarda və s. insanın şərəf və ləyaqətini alçaldan kobud, təhqiramiz sözlərə və hərəkətlərə yol verdikdə, qanunsuz hərəkətlərə çağırıldıqda;

13.1.5. Hakimlərin, yarış və çempionatların təşkilatçılarına idmançılar və başqa iştirakçılar tərəfindən təzyiq göstərdikdə;

13.1.6. AAF üzvünün yüksək adına xələl gətirən hərəkətlərə yol verdikdə;

13.1.7. AAF-ın Nizamnaməsinə əməl olunmadıqda;

13.1.8. AAF-ın qarşısında hər hansı maliyyə öhdəliklərini yerinə yetirmədikdə;

13.1.9. AAF-ın maraqlarına zidd və mənafelərinə xələl gətirən hərəkətlərə yol verdikdə

13.2. Bu maddələrin yuxarıda sadalanan xətalara görə AAF üzvlərinə, klublara, yığma komandanın üzvlərinə aşağıdakı intizam tədbirləri tətbiq edilə bilər:

- xəbərdarlıq;

- cərimə;

- yarışlardan kənarlaşdırma;

- AAF-ın üzvlüyündən çıxarılma

13.3 Yuxarıda qeyd olunan qanun pozuntusu hallarında ittiham olunan fiziki və hüquqi şəxslərin məsələsi əvvəlcə münaqişə komissiyasında müzakirə olunur və bu məsələlərin İcraiyyə Komitəsində müzakirə olunub-olunmaması zərurəti müəyyənləşdirilir

13.4 Qeyd edilən məsələ İcraiyyə Komitəsinin gündəliyinə çıxarıldığı təqdirdə, həmin şəxs(lər) Baş katib tərəfindən iclas gününə ən az 5 (beş) gün qalmış İcraiyyə Komitəsinin iclasının günü, saatı və yeri barədə xəbərdarlıq edilir.

13.5. İntizam məsuliyyəti məsələsi həll edilərkən İcraiyyə Komitəsinin iclasında iştirak edən üzvlərin 2/3-si razılıq verdikdə, şəxs(lər) intizam məsuliyyətinə cəlb edilir.

13.6. İcraiyyə Komitəsinin bu qərarından, əvvəl Konfransa daha sonra AAF vasitəsilə DA-ya (AİU) və məhkəməyə şikayət verilə bilər.

13.7. Münaqişəni AAF-ın Nizamnaməsi ilə həll etmək mümkün olmadığı halda ixtilaf DA-nın qayda və reqlamentləri əsasında həll edilir.

## 14.MALİYYƏ MƏSƏLƏLƏRİ

AAF-ın əmlakının formalaşdırılma maddələri:

14.1. AAF-ın əmlakı onun təsisçilərinin (təsisçisinin) verdiyi puldan, qiymətli kağızlardan, başqa əmlakdan və ya əmlak hüquqlarından və ya pul dəyəri olan digər hüquqlardan və ianələrdən, dövlət yardımından, qrantlardan və qanunvericiliklə qadağan olunmayan digər mənbələrdən daxil olan vasitələrdən ibarət ola bilər.

14.2. AAF-ın əmlakı onun əsas fondlarından və dövriyyə vəsaitlərindən, o cümlədən dəyəri AAF-ın müstəqil balansında əks olunan digər vəsaitlərdən ibarətdir.

14.3. AAF-ın əmlakı AAF-ın mülkiyyətidir.

14.4. AAF-ın əmlakının pul və digər şəkildə formalaşdırma mənbələri aşağıdakılardır:

14.4.1. AAF-ın təsisçilərinin və ya üzvlərinin müntəzəm və ya birdəfəlik üzvlük haqqları;

14.4.2. Reklam və xidmətlər göstərilməsindən, daxil olmalar;

14.4.3. Səhmlər, istiqrazlar, başqa qiymətli kağız və əmanətlərdən alınan dividendlər, gəlirlər;

14.4.4 Qrantlar;

14.4.5. Qanunvericiliklə qadağan olunmayan başqa gəlirlər.

14.5 AAF-ın maliyyə fəaliyyəti atletika idmanının inkişafı proqramının, o cümlədən aşağıdakıların həyata keçirilməsinə yönləndirilməlidir;

- Respublika yarışlarının təşkili və keçirilməsi;
- Regionlarda yeniyetmə idmançıların inkişafına dəstək;
- Zona birinciliklərinin təşkili və keçirilməsi;
- İşçilər, hakimlər, məşqçilər və s. üçün tədris proqramlarının təşkili;
- Atletika üzrə inkişaf proqramlarının (kurslar, seminarlar, treyninqlar, uşaq atletikası və s.) tərtibi;
-Müxtəlif yarışlarda yığma komandanın üzvlərinin iştirakını təmin etmək
-Atletikanı təbliğ etmək
- AAF-ın ofisinin və ştatın saxlanılması.
- Yüksək nəticə göstərmiş idmançılara (reytinqə əsasən), yığma komandanın məşqçilərinə, Bakıda və regionlarda fəaliyyət göstərən məşqçi-seleksionerlərə və idmançı veteranlara təqaüdlərin verilməsi.

14.6. AAF öz fəaliyyətinin nəticələrinə görə qanunvericiliklə müəyyən edilmiş qaydada və formada mühasibat, əməliyyat uçotu, statistik hesabat aparır, balans tərtib edir.

14.7. AAF sahibkarlıq fəaliyyəti həyata keçirdikdə Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş vergiləri ödəyir.

## 15. MÜNAQİŞƏLİ MƏSƏLƏLƏR

15.1 Beynəlxalq elementli mübahisələr zamanı İsveçrənin Lozanna şəhərində yerləşən Arbitraj məhkəməsinin qərarı yekun və həlledicidir.

15.2 Bütün daxili münaqişələr tərəflərə keçirilmə tarixi əvvəlcədən xəbər verilməklə münaqişə komissiyasında açıq kollegial və mövcud qaydalara müvafiq həll edilir.

## 16.AAF-IN YARIŞ FƏALİYYƏTİNİN HÜQUQİ ƏSASLARI

16.1 AAF bütün yarışlarını DA və AAA yarış qaydaları, reqlamentinə müvafiq təşkil edir və keçirir.

16.2 Yarış fəaliyyətinə qoşulan hər bir idmançı rəsmi müqavilə bağlamaqla onun hüquqlarını müdafiə edən nümayəndəsini müəyyənləşdirir.

16.3 AAF-ın üzvü olan bütün atletlər tələb olunan vaxtda və yerdə DA (AİU), Azərbaycan Milli Antidopinq Agentliyi (bundan sonra AMADA) və ÜADA qaydalarına müvafiq olaraq dopinq-testdən keçməyə borcludurlar.

16.4 Ümumdünya Antidopinq Agentliyi və AMADA-nın qayda və maddələrinə əsasən yarışlardan kənarlaşdırılmış idmançıya, müvafiq sanksiyalar əsasında cəzalar tədbiq olunur;

16.5 Antidopinq qaydalarını pozan idmançılar, müvafiq antidopinq qaydalarına əsasən cəzalandırılacaqlar.

16.6 AAF keçirdiyi bütün yarışlarda, hazırlıq dövründə DA, ÜADA və AMADA-ya yarışların gedişində və yarışdan kənar dopinq yoxlamaları keçirmək səlahiyyəti verir.

16.7 AAF il ərzində keçirilən dopinq-test yoxlamaları və təlim-tədris kursları barədə AİU-ya illik hesabat təqdim edir.

16.8 ÜADA, AMADA və AİU-nun hər hansı bir idmançını yarışdan kənar dopinq-test yoxlamasına götürmək hüququ var.

16.9 AAF-ın rəhbərliyi ilə keçirilən bütün yarışlarda atletlərin iştirak şərti, onların yarışda və ya yarışlara hazırlıq prosesində ÜADA, AMADA və ya başqa səlahiyyətli təşkilatlar tərəfindən keçiriləcək dopinq-testdə iştirak etməyə razılıq vermələrindən ibarətdir.

16.10 Öz səlahiyyətləri çərçivəsində təsdiq etdiyi qayda və reqlamentlərin Ümumdünya Antidopinq Məcəlləsi, beynəlxalq standartlar, AMADA-nın və DA-nın antidopinq qaydalarına uyğun olmasını təmin edir.

16.11 "İdmanda dopinq vasitələrindən və üsullarından istifadəyə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən AMADA-nın səlahiyyətlərini tanımaq və onun müəyyən etdiyi qaydaların tələblərinə riayət etmək, habelə AMADA ilə dopinq nəzarətinin həyata keçirilməsi ilə bağlı əməkdaşlıq edir.

## 17.AAF-IN LƏĞV EDİLMƏSİ QAYDALARI

17.1 AAF-ın ləğvi və əmlakının müqəddəratı haqqında qərar Konfransda qəbul edilir.

17.2 AAF-ın ləğvinin başqa əsasları və qaydası Azərbaycan Respublikasının Mülki Məcəlləsi və digər normativ-hüquqi aktları ilə müəyyənləşdirilir.

17.3 AAF ləğv edildikdə onun əmlakı Nizamnaməsində göstərilmiş məqsədlərə, bu mümkün olmadıqda isə dövlət büdcəsinə yönəldilir.

## 18.DİGƏR ŞƏRTLƏR

18.1 Bu Nizamnamədə nəzərdə tutulmayan məsələlər qanunvericiliklə tənzimlənir.

18.2 Gələcəkdə bu Nizamnamənin müddəaları qanunvericiliklə ziddiyyət təşkil edərsə, qanunvericiliyin müddəaları tətbiq edilir.

18.3 AAF-ın maliyyə ili dövlət qeydiyyatına alındığı tarixdən həmin ilin dekabr ayının 31-dək, növbəti ildən isə yanvar ayının 1-dən dekabr ayının 31-dək olan dövrü əhatə edir.

**AZƏRBAYCAN ATLETİKA FEDERASİYASI**

**İctimai Birliyinin**

**NİZAMNAMƏSİ**

**(3-cü REDAKSİYADA)**